# Küçələrin 9-cu fəthi başladı

**Artıq dünyadakı "Formula-1" həvəskarları bu yarışı Bakısız təsəvvür etmirlər. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası isə bu yarışlarda özünəməxsusluğu ilə seçilir. Trekin uzunluğu 6 kilometrdən bir qədər artıqdır. Bu, uzunluğuna görə dünyada ikincidir.**














Unikal xüsusiyyətlərə sahib Bakı Şəhər Halqası ətrafındakı tribunaların sayı doqquzdur. Bunlar "Abşeron", "Azneft, "Muğam", "Sahil", "İçərişəhər", "Qız qalası", "Bulvar", "Xəzər" və "Filarmoniya" tribunalarıdır. Həmçinin ayaqüstü zonalar üçün də bilet satışı həyata keçirilir. Ümumi tamaşaçı tutumu (ayaqüstü zonalar daxil olmaqla) 30 minə yaxındır. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində yerləşir. Ən ensiz hissəsi isə 7,6 metrdir (Qoşa qala divarlarının yanı).

Start xətti Azadlıq meydanında, finiş xətti isə "Abşeron" tribunasının qarşısında təyin olunan trekboyu döngələrin sayı 20-dir.

"Formula-1" yarışlarının yaranma tarixi XX əsrin 20-30-cu illərini əhatə edir. Həmin illər təşkil olunan Avropa Qran-pri turnirləri qısa müddət ərzində böyük marağa səbəb oldu. Lakin İkinci Dünya müharibəsinin başlaması ilə bu yarışlara da fasilə verildi. Yalnız müharibədən sonra yenidən aktiv fəaliyyətə başlayan FİA formula yarışlarına da yeni qaydalarla start verdi.

Bu növ üzrə ilk rəsmi dünya çempionatı isə 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olundu. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə apardı. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn "Alfa Romeo"nun italiyalı pilotu Cüzeppe Nino Farina "F1" yarışının ilk qalibi kimi tarixə düşdü. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio oldu. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxdı. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman vermədi. Hər il "Formula-1" üzrə dünya çempionatı çərçivəsində Qran-pri adlanan bir neçə mərhələ yarışı keçirilir. Bu mərhələlər müxtəlif ölkələrdə, o cümlədən Avstraliya, Monako, Bəhreyn, İspaniya və bir çox başqa ölkələrdə təşkil edilir.

Dünyada geniş tamaşaçı auditoriyasına malik bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" Qran-priləri bir zamanlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanın dörd bir tərəfində təşkil edilir. "Formula-1"də qələbə uğrunda komandalar və heyətində pilotlar mübarizə aparır. Hər komandada iki pilot və buna müvafiq olaraq iki bolid olmalıdır. Mövsüm boyu keçirilən "Formula-1" Qran-pri yarışlarında ən çox xal toplayan pilot dünya çempionu olur.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 20 sentyabr (№201).- S.7.